BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№2 Sosial-siyasi elmlər seriyası 2005*

# PEDAQOGİKA

## ALİ MƏKTƏB MÜHAZİRƏSİNİN SƏMƏRƏLİ TƏŞKİLİ ŞƏRTLƏRİ

**R.M.MAHMUDOVA**

*Məqalədə müəllif ali məktəbdə tələbələrə biliklərin təlimində mühasirələrin təşkilindən, həmçinin müxtəlif tədris ocaqlarında pedaqoqika təlimi sahəsindəki təcrübədən bəhs olunur.*

Ali məktəbdə fundamental biliklərin tələbələrə öyrədilməsində mühazirə mühüm əhəmiyyətə malikdir. Bizə görə, mühazirə məşğələsi ali məktəbdə təlimin əsas təşkil forması olmaqla, yanaşı həm də mühazirə fəal təlim metodudur. Təcrübədə mühazirənin məqsədəuyğun olaraq informasiyaverici, inam və əqidə formalaşdırıcı, müstəqil işə yönəldici və s. formalarından, eləcə də sistemli kurs mühazirəsi, problemli mühazirə, disput-mühazirə və s. tiplərindən istifadə olunur. Bununla yanaşı, hələ də mühazirəyə yalnız proqram materialının izahlı çatdırılması vasitəsi kimi, yaxud proqramın tələbi üzrə informasiyaverici vasitə kimi baxanlar vardır. Bu cür mühazirələri dinləyən tələbələr mühazirəni təfəkkür fəaliyyətinin inkişafında əsas hesab etmirlər. Doğrudan da, maraqlı faktları, problemli sualları, müqayisə və məntiqi nəticələri, yenilikləri, müəllim-tələbə dialoqu, əyaniliyi, texniki vasitədən istifadəsi olmayan monoton mühazirə tələbələri az düşündürür, onları fəal fikri fəaliyyətə sövq etmir.

Bəs necə olmalıdır? Bakı Slavyan Universitetinin pedaqogika kafedrasının müdiri, prof. S.Şəfiyevin fikri belədir: "Hər bir mühazirəçinin əsas məqsədi ondan ibarət olmalıdır ki, mühazirəni canlı və maraqlı qursun, həyatda gedən yenilikləri nəzərə alsın, zəngin təcrübədən faydalansın, tələbələri qaldırılan problemlərin həllinə qoşsun, elmin yeniliklərindən istifadə etsin və beləliklə, tələbələrin fəallıqlarına şərait yaratsın. Mühazirədə müəllim ümumi məzmunu müəyyənləşdirməklə yanaşı qarşıya çıxan problemi konkretləşdirməli, fərziyyəni açmalı, tələbələrin dərketmə qabiliyyətini inkişaf etdirmək məqsədi ilə onlara düşünməyi, yollar axtarmağı öyrətməlidir. Mühazirəçi aşağıdakı tələblərə əməl etməlidir:

1. Qabaqcadan tələbələrin müstəqil fəaliyyətə cəlb edilməsini və işin məzmununu müəyyənləşdirmək;

2. Əsas problemlərin həllində onun ardıcıllığına, sisteminə fikir vermək;
3. Mühazirə vaxtı nümayiş etdirəcəyi əyani və texniki vasitələri ayırmaq və onun tələbələr tərəfindən müstəqil surətdə istifadə edilmə formasını müəyyənləşdirmək;
4. Müstəqil işin növünü, forma və metodlarını planlaşdırmaq;
5. Tələbələrin müstəqil işinə nəzarətin formalarını müəyyənləşdirmək (Şəfiyev S. Tələbələrin müstəqil işinə dair. *Azərbaycan məktəbi.* 1977, №2, s. 3-6).

Müəllif haqlı olaraq qeyd etdiyi şərtləri şablon, standart hesab etmir. Bu şərtlərin mühazirənin mövzusuna və tələbələrin fiziki hazırlığı və yaş xüsusiyyətlərinə uyğun olaraq nəzərə alınmasını tələb kimi irəli sürür.

Bakı Ali Pedaqoji Qızlar Seminariyasının professoru S.Quliyev mühazirəni tədris edilən kursun məzmununun sistemli, ardıcıl, bütöv çatdırılması metodu hesab edir. Lakin mühazirənin necə maraqlı, dərk edilən, problemli, yeni məlumatla zəngin, həyati əhəmiyyətli qurulması metodikasını hər bir mühazirəçinin şəxsi-fərdi pedaqoji üslubu kimi qiymətləndirir. Mühazirənin tələbələrin müstəqil fikri fəaliyyətinin inkişafına təkan verməsinin imkanlarından istifadəyə geniş yer verilməsini vacib sayır.

Lənkəran Dövlət Universitetinin pedaqogika və psixologiya kafedrasında mühazirəçilər hər tədris ilində mühazirə materialını təkmilləşdirir və yeniləşdirir. Xüsusilə az əhəmiyyətli hesab olunan, köhnəlmiş, təkrarlanan hissələr, məlumatlar çıxarılır, əvəzinə yeni məlumatlar, yeni ideya və fikirlər daxil edilir.

Ayrı-ayrı mövzular üzrə (məsələn, «Ekoloji tərbiyə», «Hüquq tərbiyəsi», «İqtisadi tərbiyə», «Yeni təlim metod və texnologiyaları» və s.) məlumatın sıxlığı, müstəqil münasibət bildirmək səyləri artırılır.

Digər bir təcrübə mühazirə oxunarkən mühazirəçinin analitik problemli şərhə əsaslanmasıdır. Kafedrada pedaqogika üzrə problem tapşırıqların təsnifatı işlənib, hər bir mühazirə və məşğələyə 20-30 problem sualları və tapşırıqları hazırlanır. Bu sual və tapşırıqların hər biri tələbələrdə fakt və hadisələrin pedaqoji səbəb və nəticələrini, qanunauyğunluqlarını, pedaqoji prosesin dinamikasını və s. görməyə, axtarıb tapmağa kömək edir.

Problem sualları və tapşırıqları mühazirəyə bir neçə variantda daxil edilir. Mühazirəçi bəzi hallarda onu mühazirənin axırına problemli vəziyyət yaratmaq üçün daxil edir və tələbələrin köməyi ilə evristik metoddan istifadə edərək problemin həllini verir. Bəzi hallarda mühazirənin əvvəlinə daxil edilir və bununla tələbədə maraq yaradılır, tələbə idrak fəaliyyətinə ilk andan fəal qoşulmağa məcbur olur. Nəticədə onlar müstəqil olaraq mühazirəni və öz fəallıqlarını tənzimləyir, yaxud iştiraklarını təmin edirlər.

Mühazirədə əsas məqsəd tələbələrə, anlayışları, qanunauyğunluqları anlatmaq imkanı verməklə yanaşı, onların mühazirədə nəzərdən keçirilən problemə müstəqil münasibət bildirmək bacarığına yiyələnmələrinə kömək etməkdir, onlara öz

imkanlarını təkidlə müdafiə etmək səyi formalaşdırmaqdır. Deməli, mühazirənin əsas vəzifəsi məlumatlar yığınını ardıcıl ötürməyə xidmət deyil, tələbənin şüuruna və hissinə məqsədyönlü formalaşdırıcı təsir göstərərək, onu qoyulan problemlər haqqında sərbəst düşünməyə istiqamətləndirməkdir.

Mühazirə daha bir cəhəti ilə səciyyələnir. Mühazirə vasitəsilə tələbənin elmi-yaradıcı təfəkkürü inkişaf etməyə başlayır, öyrənilən fənnə müəyyən münasibət formalaşır. Mühazirə məşğələsinin hansı səviyyədə keçməsi, tələbələrin akademik fəaliyyətinin də səviyyəsini meydana çıxarır.

Müşahidələrimizdən belə qənaətə gəlmişik ki, mühazirəyə verilən məlum pedaqoji-dedaktik-metodik tələblər meydanda olsa da hərə öz üslubuna, hazırlığına, peşəkarlığına uyğun olaraq mühazirəsinə hazırlaşır və onu oxuyur.

Elə mühazirəçi-müəllimlər olur ki, qabaqcadan hazırlanmış və dəfələrlə oxunmuş mətndən istifadə edir. Elə mühazirəçi də olur ki, dərslikdən və ya əlavə ədəbiyyatdan istifadə edərək, keçəcəyi mövzunu icmallaşdırır. Dərs zamanı heç bir improvizə etmədən, sadəcə həmin icmalı oxuyur. Əlbəttə, belə mühazirə tələbələri maraqlandırmır və düşündürmür.

Elə mühazirəçi də olur ki, hazır mühazirə mətnini əldə edib, onu oxuyur. Bunun tələbə üçün hissi-idraki, nə də rassional faydası olmur.

Xüsusi əzbərçiliklə hazırlaşma yolu ilə, yaxud ümumi səthi hazırlıq əsasında deyilən mühazirələrdə faktlar və şərhlər inandırıcı görünmür. Tələbəyə yeni məlumat və istiqamət aşılanmadığı üçün belə mühazirələrdə onu düşünməyə vadar edən faktlar yox dərəcəsində olur.

Tezislər əsasında oxunan mühazirələrə də rast gəlmək mümkündür. Mühazirəçi mühazirəyə hazırlaşarkən deyəcəyi fikirləri qruplaşdırır və mühazirənin mətnini tezislər formasında tərtib edir. Əlbəttə, bu da geniş mətnə yox, yaddaşa əsaslanır. Belə mühazirə əvvəlki formalardan əhəmiyyətli olsa da, əhatəliliyi, faktların elmi təhlili ilə diqqəti cəlb etmir. Harda problemlilik yaratmaq, harda diskussiyaya yer vermək, harda interaktiv metoddan istifadə etmək və s. bu kimi fəallıq yaradan məqamlar ya yerində olmur, ya da tamam unudulur.

Geniş, tam mühazirə hazırlayan mühazirəçi mövzuya uyğun olaraq ədəbiyyatla ətraflı tanış olur, onları öyrənir, əhatəli mühazirə mətni hazırlayır. Mühazirənin planını tərtib edir. İstifadə edilən ədəbiyyatı göstərir, tələbəyə hazırlaşmaq üçün məsləhət görülən ədəbiyyatın siyahısını, şərh zamanı istifadə edəcəyi metodikanı müəyyənləşdirir. Mühazirə mətnini müşayiət edən sxemləri, qrafikləri, slaytları hazırlayır. Düşündürücü sualları müəyyənləşdirir, mövzularla, yaxud digər elmlərlə əlaqə üçün məqamları və məzmunu konkretləşdirir və s.

Mühazirəçi hazırladığı mətni onun planı və tezisləri üzrə səlis, rəvan, aydın nitqlə, məntiqi əlaqəliliklə, faktların elmi təhlili ilə şərh edir, tələbələri mühazirənin fəal iştirakçılarına çevirir,

onları düşündürür, birlikdə problemi həll edir, ümumiləşdirmə verir, nəticə çıxarır – nəticədə təkcə rasional baxımdan deyil, emosional cəhətdən də yüksək səviyyəli məşğələ alınır.

Belə bir qənaətdəyik ki, tələbələri düşündürən, onların da iştirakı ilə problemləri həll edə-edə oxunan və duyğuları oyadan mühazirələr daha diqqətlə, maraqla dinlənilir. Təkcə material toplamaq və mətn hazırlamaq mühazirəçi üçün azdır. Mühazirəçi yüksək nitq mədəniyyəti nümayiş etdirdikdə, dilin zənginliyindən, jest və mimikadan istifadə etdikdə, əyaniliyi yerli-yerində mövzuyla sıx bağlayaraq nümayiş etdirdikdə, mühazirə tempini gözlədikdə (yuxarı kurslarda dəqiqədə təxminən 50-60 söz, aşağı kurslarda bir balaca az), mühazirəni toplanmış materialların sadəcə ötürücüsü kimi deyil, ideyalar, fikirlər, mövqe müəllifi kimi inamla, sübutlu – dəlilli, ağıllı və optimal həmsöhbət, əsil alim kimi təqdim etdikdə tələbələrin böyük marağına və razılığına səbəb olur. Onlar elmin inkişafını proqnozlaşdıran, yenilikçi alim-müəllimin hər fikrinə diqqətli olmağa çalışır, ondan öyrənir və onun məsləhət və tapşırıqlarını böyük inamla yerinə yetirirlər – nəticədə müstəqil fikri fəallığa yiyələnir, öyrənmək işinin öhdəsindən lazımınca gələ bilirlər.

Hələ XIX əsrdən məşhur alman pedaqoqu və psixoloqu A.Disterveqin belə bir fikri məlumdur ki, pis müəllim həqiqəti təqdim edir, yaxşısı isə onu tapmağı öyrədir. Məlumdur ki, yaradıcı olan, fəal təlim metodlarından istifadə edən və məşğələni yaradıcılıqla aparan mühazirəçi müəllimlərin tələbələri, məşğələdən məşğələyə inkişaf edir, müstəqil idrak fəallığına, müstəqil mövqeyə yiyələnirlər.

Yaxşı mühazirə, başlıca olaraq, tələbələrin nəzəri hazırlığına, məntiqi nəticələrə gələ bilmək, ümumiləşdirmələr apara bilmək bacarığının formalaşmasına, müstəqil işin əhəmiyyətini başa düşməyə və onun icrasına meyllənməyə, ilkin mənbələrlə və ədəbiyyatla işləməyin məqsədini anlamağa və s. bu kimi xüsusiyyətlərə yiyələnmələrinə kömək edir.

Burada mühazirəçinin şəxsiyyət bütövlüyü, əxlaqi-mənəvi saflığı, yüksək elmi-ixtisas hazırlığı, humanizmi, xeyirxahlığı, ədaləti, obyektivliyi, prinsipiallığı, tələbələrlə işləmək həvəsi, alimlik dəyəri, natiqliyi, mühüm təsiredici amil rolunu oynayır. Digər bir amil isə mühazirənin elmi, metodik təminatının yüksək olması-dil gözəlliyidir. Belə olmasa mühazirə öz funksiyasını yerinə yetirə bilməz. Çox-çox illər əvvəllərdə dərsliklər, kitablar, vəsaitlər az idi və ya heç yox idi. Mühazirə bilik, məlumat verən əsas vasitə idi. İndi isə belə deyil. Mühazirə oyadıcı, düşündürücü, istiqamətverici, inkişafetdirici, müstəqil fəaliyyətə hazırlayıcı bir vasitədir.

Biliyi, məlumatı hazırda bol olan dərsliklərdən, kitablardan, hətta internetdən almaq olar. Amma alim-müəllim baxışını, səsini, ifadə tərzini, şərh, tapşırıq tonunu, məqama, ehtiyaca görə problemin izahını, ünsiyyətin görünən və simvolik təzahürünü yalnız insanın özü həyata keçirə bilər. Ona görə də hazırda mühazirə

daha çox psixoloji təsirə malik insani ünsiyyəti yaşadan və inkişaf etdirən bir funksiyanı daşımaqdadır. Odur ki, mühazirəni elə qurmaq, elə aparmaq lazımdır ki, o, tələbənin sosial, psixi, elmi-idraki, müstəqil fəaliyyət imkanlarını artırsın.

Mühazirə ilə əlaqədar rus alimi P.A.Florenskinin fikri çox maraqlıdır. O, yazır ki: «Существо лекции – непосредственная научная жизнь, совместное со слушателями размышление о предметах науки, а не изнесение из запасов кабинетной учености готовых, отлившихся в стереотипную форму выводов. Лекция – это посвящение слушателей в процесс научной работы, приобщение их к научному творчеству, род наглядного и даже экспериментального научения методом работы, а не только передача «истин» науки в ее «настоящем» положении… Лекция… должна не научить тому или другому кругу фактов, обобщений или теорий, а приучить к работе создавать вкус к научности, давать «заправку», дрожжи интеллектуальной деятельности.»

Lakin müşahidələr göstərir ki, Azərbaycan Respublikasının ali məktəblərində pedaqoji elmlər üzrə mühazirələr yuxarıda qeyd edilən cəhətləri qismən əhatə edir.

XXI əsrin meydana gətirdiyi sosial-iqtisadi, ictimai, siyasi dəyişikliklər, yeniliklər, Azərbaycan Respublikasının müstəqil dövlət olaraq fəaliyyəti, vətəndaş təhsili, demokratik və humanist prinsiplərə üstünlük verilməsi, ümumiyyətlə, tədrisdə yeni didaktik tərzlər və metodlar, innovasiyalar və s. meydana gətirdiyi kimi, konkret olaraq mühazirənin məzmununda, onun elmi, didaktik, metodik istiqamətində, şərh və məlumat üsullarında yeniliklərdən fəal istifadəni zəruri etmişdir.

Biz belə qənaətdəyik ki, mühazirəyə aşağıdakı əsas tələblər verilməlidir:

1. Başlanğıc, davamedici və yekunlaşdırıcı mühazirələrin hər biri özünəməxsus metodika ilə qurulsun.
2. Mühazirələr başlanğıcdan tələbənin diqqətini çəksin, onu maraqlandırsın. Başlanğıcdan problem yaradılsın, suallar qoyulsun, tələbələr şərhi maraqla izləsinlər.
3. Məlumat və informasiya birər-birər ardıcıllıqla deyil, əsas anlayışlar və əsas bloklar üzərində qurulsun. Çatmayan hissələri, deyilməyən məlumatı əldə etmək tələbələrə həvalə edilsin.
4. Mühazirədə qoyulan problemlərin tələbələr tərəfindən dərk edilməsinə, qavranılmasına və nəticədə onların bu istiqamətdə bilik, bacarıqlarının formalaşmasında məşğələ dərslərinin də xüsusi yeri vardır. Bu baxımdan mühazirə mətinləri ilə məşğələ müəllimləri yaxından tanış olmalı və mühazirə müəllimi ilə sıx əlaqəli (bəlkə də razılaşmaqla) şəkildə məşğələnin keçirilməsini reallaşdırmalıdır. Təbii ki, bu məsələ o vaxt öz həllini daha yaxşı tapır ki, mühazirə və məşğələ eyni müəllimə tapşırılsın.
5. Mühazirədə qoyulan problemlərin tələbələr tərəfindən dərk edilməsi frontal sorğu yolu ilə mütləq təsdiqlənməlidir.
6. Bakalavr və magistratura pillələri üçün mühazirə oxunması

strategiyası eyni olsa da taкtiкi baxımdan кəsкin fərqlənməlidir. Magistratura pilləsində mühazirələr daha elmi xaraкter daşımalıdır.

7. Problemləri həll edərкən, faкtlara, nümunələrə müraciət edərкən tələbələrin əməкdaşlığından istifadə edilsin. Onların fiкir və mülahizələri şərhə daxil edilsin, hamı tərəfindən ona münasibət bildirilsin, müəllim isə həqiqəti ümumiləşdirsin.
8. Mühazirə zamanı sxemlərdən, qrafiкlərdən, slaytlardan və s. imкan olan texniкi vasitədən istifadə edilsin.
9. Mövzunun şərhi zamanı tələbələrin müstəqilliк fəallığını artırmaq üçün debatdan, əqli hücumdan, qruplarla işdən, işgüzar oyundan və s. istifadə edilsin.
10. Tələbələrə referat hazırlamaq, ədəbiyyatla tanış olmaq üçün tapşırıqlar verilsin və s.

Tədqiqatla müəyyənləşdirə bilmişiк кi, o müəllim, pedaqoq tələbələrinin istər müstəqil intelleкtual, yaxud ictimai və s. fəaliyyət sahələri üzrə fəallığına nail ola bilir кi, o təlim-tərbiyə prosesində fəaliyyətini 4 əsas кomponent üzrə ardıcıl qurur və onu inкişaf etdirir.

Komponentlər bunlardır: *biliк, bacarıq, vərdiş, münasibət – ünsiyyət, fəaliyyətdə yaradıcılq.*

Biliк, bacarıq, vərdiş çoxdan məlum olan pedaqoji anlayışlardır. Laкin münasibət-ünsiyyət, fəaliyyətdə yaradıcılıq кomponentləri çoxdan məlum olsa da, tədqiqatlarda pedaqoji prosesdə fəal olan anlayışlar кimi lazımınca şərh edilməmişdir. Pedaqoji proses insanlararası münasibət və ünsiyyətdə təzahür edir və bu, subyeкtin subyeкtə təsiri, yaxud subyeкtlərarası əlaqələr fonunda təcəssüm olunur. Mühazirə oxuyan mühazirəçini onlarla tələbə dinləyir, mühazirəçinin təкcə sözləri deyil, səsinin tonu, təbəssümü, baxışı da dinləyicilərlə əlaqə, münasibət formalaşdırır. Müəllim-tələbə arasında yaranan rəğbətli, ehtiramlı münasibət, qarşılıqlı anlaşma ünsiyyəti tələbədə mühazirəçinin məşğələlərinə, dediyi sözlərə, apardığı кursa məhəbbəti yaradır. Hətta alim-mühazirəçinin özünün şəxsi yaradıcılıq fəaliyyəti onu dəyərləndirən tələbələrinə sirayət edir, onlar da müəllimləri кimi mühazirə söyləyə bilməк, əsərlər yazmaq həvəsində olurlar. Beləliкlə, mühazirəçi həm metodiк tapşırıq və tələbləri, həm də şəxsi nümunəsi ilə tələbəyə psixoloji təsir göstərir. Təcrübə və müşahidələrimizdən aldığımız bu effeкt təəssüf кi, tədqiqatlarda öz əкsini tapmır. Başqa sözlə desəк, tədqiqatçılar bu effeкtə diqqət yetirməmişlər. Çünкi uzun illər bizim ölкədə öyrədən-öyrənən münasibəti subyeкt-obyeкt münasibəti кimi qavranılmışdır. Hazırda münasibət subyeкt-subyeкt кimi qəbul edildiyindən artıq insaniliyin – insani münasibət və ünsiyyətin fəaliyyətin uğurlu qurulmasında həlledici psixoloji təsirə maliк olduğu qabarıq şəкildə meydana çıxır.

## УСЛОВИЯ РАЦИОНАЛЬНОЙ ОРГАНИЗАЦИИ ЛЕКЦИЙ В ВУЗ-ах

**Р.М.МАХМУДОВА**

**АННОТАЦИЯ**

В статье нашли отражение методы рациональной организации лекций, их роль в формировании студентов ВУЗ-ов.